# AKADEMİK İSA HƏBİBBƏYLİNİN AZƏRBAYCAN ƏDƏBİYYATI TARİXİNİN DÖVRLƏŞDİRMƏ KONSEPSİYASI

*(Əvvəli ötən saylarımızda)*

Heç şübhəsiz, realist bədii metod maarifçi realizmin hərəkətverici qüvvəsi, ideya-sənətkarlıq cəhətdən kompasıdır".

Maarifçi realizmi "XIX əsr Azərbaycan ədəbiyyatı qatarının lokomotivi" adlandıran alim "dövrün digər yaradıcılıq meyilləri"nin maarifçi realizmin əhatəsində və cazibəsində fəaliyyət göstərdiyini və "bütün bunlara görə, geniş mənada XIX əsr mərhələsi Azərbaycan ədəbiyyatının maarifçilik hərəkatı və maarifçi realizm dövrüdür. Maarifçilik geniş anlayış olub ədəbiyyatla yanaşı, ictimai fikrin və cəmiyyət həyatının digər sahələrini də əhatə etmişdir. Lakin Azərbaycan ədəbiyyatının inkişafının konkret tarixi mərhələdəki xarakterini təyin edən baxış kimi maarifçi realizm anlayışı XIX əsr ədəbi fikrinin aparıcı istiqamətini müəyyənləşdirir", - deyir.

Akademik maarifçi realizmi "çoxəsrlik Azərbaycan ədəbi fikrinin xüsusi bir mərhələsi", "XVIII əsrdə erkən realizmlə başlanan realist ədəbiyyatın Azərbaycan ədəbiyyatı və ictimai fikrindəki özünütəsdiq mərhələsi" adlandırır: "XIX əsrin maarifçilik hərəkatı və maarifçi realizmi ədəbiyyatın digər ədəbi axınlarını, xüsusən romantik lirikanı arxada qoymuş, Azərbaycan ədəbiyyatında realizmin artıq dönməz xarakter aldığını və bu yaradıcılıq istiqamətinin inkişaf edəcəyini qəti şəkildə isbat etmişdir. Maarifçi realizm Azərbaycan ədəbiyyatında XVIII əsr erkən realizminin yekunu, XX əsr tənqidi realizminin başlanğıcıdır".

### Ç.Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası

Azərbaycan ədəbiyyatı tarixində inkişaf prosesinin yeddinci mərhələsini "Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası" adlandıran akademik bu mərhələyə XIX əsrin 90-cı illərindən 1920-ci ilədək olan dövrü daxil edir.

Azərbaycan ədəbiyyatının yeni tarixi mərhələsi olan XIX əsrin axırı və XX əsrin əvvəlləri ədəbiyyatının "fərqli ədəbi istiqamətlərdə çoxsaylı yeni bədii dühaların meydana çıxması ilə" səciyyələndiyini yazır. Bu tarixi mərhələdə yaşayıb-yaratmış Cəlil Məmmədquluzadə, Üzeyir Hacıbəyov, Mirzə Ələkbər Sabir, Hüseyn Cavid, Nəriman Nərimanov, Məmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Əhməd bəy Ağaoğlu, Firudin bəy Köçərli və başqalarının rolunu yüksək qiymətləndirir.

XX əsrin əvvəllərində Azərbaycan ədəbi-ictimai mühitində də "ədəbi-mənəvi renessans prosesləri yaşanmış, təzə əsrin yeni tipli ədəbiyyatının" inkişaf etdiyini təsdiqləyən alim XIX əsrdə yüksək inkişaf mərhələsi yaşayan maarifçi ideyaların XX əsrin əvvəllərində daha da formalaşaraq milli-demokratik hərəkat səviyyəsinə qalxdığını, "XX əsrin əvvəllərinin milli-demokratik hərəkatına" çevrildiyini yazır.

Mirzə Ələkbər Sabirin (1862-1911) məşhur "Fəxriyyə" şeirində də ümummilli birliyə malik olmadan böyük inkişafa nail olmağın qeyri-mümkünlüyünün ümumiləşdirildiyini bildirən İ.Həbibbəyli bu şeiri "XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının "Vətən və milli istiqlal" şeirinin proqramı adlandırır. Mirzə Ələkbər Sabirin "mənsub olduğu xalqın və ölkənin milli-mənəvi intibahına böyük təkan verən, dərin ictimai məzmuna malik olan yeni tipli satirik şeirin banisi kimi" fəaliyyətini təqdir edir, ümumilikdə, Cəlil Məmmədquluzadənin və ümumiyyətlə, mollanəsrəddinçilərin yaradıcılığında "Nə etməli" sualına verilən cavabların hamısında müstəqil Azərbaycan idealı, mövcud üsul-idarəni dəyişmək və xalqı milli istiqlala çatdırmaq vəzifəsi mütləq şəkildə irəli sürülmüş və müdafiə olunmuşdur",-deyir. Mirzə Cəlilin "Rişədən başlamalı" çağırışını "tənqidi realizm ədəbiyyatında "nə etməli" sualının ən tutarlı cavabı, geniş mənada isə proqramı" kimi qiymətləndirir.

XX əsrin əvvəllərinin aparıcı ədəbi istiqamətini təşkil edən tənqidi realizm - mollanəsrəddinçilik dövrün həm ədəbiyyatının, həm də ictimai-siyasi fikrinin hərəkətverici qüvvəsi olduğunu söyləyən İsa Həbibbəyli olmuşdur. Ədəbiyyatşünasların fikirlərindəki ("yeni dövrün Azərbaycan ədəbiyyatını böyük ədibin (Cəlil Məmmədquluzadənin - İ.H.) adı ilə "Molla Nəsrəddin" dövrü" adlandırırlar. Molla Nəsrəddin - Cəlil Məmmədquluzadə - bu adın özü... ədəbiyyatımıza sima və sifət verən simvol olmuşdur. Bu ad çəkildimi, ədəbiyyatda siyasi ideyaların çarpışması dövrü, müasir, mübariz, həqiqi həyat ədəbiyyatının güclü və cəsarətli bir axınla hücuma keçməsi dövrü təsəvvürdə canlanmış olur") təqdir edir.



"Molla Nəsrəddin" ədəbi məktəbini "Azərbaycan tənqidi realizminin əsas vəzifələrini, siyasi-ədəbi məqsədlərini həyata keçirən mübariz ədəbiyyat məktəbi", mollanəsrəddinçilik təlimini "tənqidi realizm ədəbiyyatının proqramının ana müddəalarının ifadə olunduğu siyasi məfkurə və milli ədəbiyyat strategiyası", "tənqidi realizmin nizamnaməsi və əsasnaməsi", milli müstəqillik və azadlıq uğrunda mübarizəni isə "mollanəsrəddinçilik hərəkatının əsas qayəsi" adlandırır.

İsa Həbibbəyli mollanəsrəddinçiliyi belə xarakterizə edir: "Mollanəsrəddinçilik - ədəbiyyatda tənqidi realizm və satira məktəbi kimi qəbul olunur. Mollanəsrəddinçilik - tənqidi realizm və ictimai satira vasitəsilə cəmiyyəti dəyişmək, yeniləşdirmək, xalqı irəli aparmaq uğrunda mübarizə deməkdir. Satiranın bütün gücü və imkanları mollanəsrəddinçilik təlimində öz əksini tapır. "Molla Nəsrəddin" jurnalının dili, üslubu, janrları, tipajları və karikaturaçılıq mollanəsrəddinçi poetikanın əsasını təşkil edir. Mollanəsrəddinçilik - satirik publisistikanın siyasi kəsəri, yüksək vətəndaşlıq ruhu, forma müxtəlifliyi, zəngin sənətkarlıq imkanları mənasını ifadə edir. Mollanəsrəddinçilik - ədəbiyyatda və ictimai fikirdə demokratik proseslərin genişləndirilməsi və müdafiə olunması hərəkatı deməkdir. Mollanəsrəddinçilik - ədəbiyyatda milli istiqlala, müstəqil dövlətçilik idealına, azərbaycançılıq məfkurəsinə sədaqətlə xidmət etməkdir".

Cəlil Məmmədquluzadəni "mollanəsrəddinçi və tənqidi-realist ədəbiyyatın sərkərdəsi" kimi yüksək qiymətləndirir.

"Molla Nəsrəddin" jurnalının nəşri ilə Azərbaycan ədəbiyyatında tənqidi-realist ədəbiyyatın sürətlə inkişafını, çoxəsrlik Azərbaycan ədəbiyyatında satira və yumor əlamətlərinin olduğunu, bu prosesin XIX əsrdə "satirik-didaktik xarakter" aldığını, XX əsrin əvvəllərində isə tam mənası ilə tənqidi-satirik ədəbiyyat səviyyəsində təzahür etdiyini, "XIX əsr Azərbaycan maarifçi realizmində satira islahedici mahiyyət daşıdığı halda, XX əsrin əvvəllərinin tənqidi realizmində keskin ifşaedici məzmunda" olduğunu söyləyən İsa Həbibbəyli Mollanəsrəddinçiləri "Azərbaycan tənqidi-satirik ədəbiyyatının əsas yaradıcıları və hərəkətverici qüvvələri" kimi qiymətləndirir. "Molla Nəsrəddin" jurnalını "realist tənqidi-satirik ədəbiyyatın ana beşiyi" adlandırır və "başda Cəlil Məmmədquluzadə olmaqla, Mirzə Ələkbər Sabir (1862-1911), Əbdürrəhim bəy Haqverdiyev (1870-1933), Məmməd Səid Ordubadi (1872-1950), Əli Nəzmi (1878-1946), Əliqulu Qəmküsar (1880-1919), Mirzəli Möcüz (1873-1934), Əli Razi Şamçızadə (1886-1939) və başqalarının" XX əsrin əvvəllərində Azərbaycan realist tənqidi-satirik ədəbiyyatının yaratmış olduğunu bildirir. Maarifçi-realistlərdən fərqli olaraq, Azərbaycan tənqidi realizmində islahatçılığın deyil, cəmiyyətdə ciddi ictimai-siyasi dəyişikliklərə nail olmağı əsas hədəf hesab edir: "Bu, maarifçi ideyaları gündəmə gətirməklə, yaxud genişləndirməklə deyil, milli-mənəvi özünüdərk və siyasi azadlıq məsələsinin həlli ilə fəal surətdə məşğul olan ədəbiyyat idi. Tənqidi realizm - Azərbaycan ədəbiyyatında mövcud ictimai-siyasi və mənəvi şəraitin tipik vəziyyətlərini əks etdirən və onu dəyişdirməyin zəruriliyini, qaçılmazlığını bütün enerjisi ilə səsləndirən ədəbiyyatdır" - deyir.

XX əsrin əvvəllərində tənqidi realizmin Azərbaycan ədəbiyyatına yeni janrlar gətirdiyini, kiçik hekayənin böyük ədəbiyyatın janrları sırasında ön mövqeyə çıxdığını qeyd edir və XX əsrin əvvəllərini Azərbaycan ədəbiyyatının hekayəçilik dövrü kimi səciyyələndirir.

Azərbaycan ədəbiyyatında tragikomediya janrının XX əsrin əvvəllərində tənqidi realizm epoxasında yarandığını bildirən alim Cəlil Məmmədquluzadənin "Ölülər", "Anamın kitabı", "Dəli yığıncağı" tragikomediyalarını "ədəbiyyatımızda bu janrın ilk və mükəmməl nümunələri" bilir. M.F. Axundzadənin komediya və N.Vəzirovun faciə janrında yazdığı dramaları xatırladır və "bu mərhələdə milli məişətin komediyası və nadanlığın faciəsi fərqli əsərlərdə" təsvir edildiyini, "Cəlil Məmmədquluzadənin tragikomediyalarında isə xalqın düşdüyü vəziyyətin komediyası və faciəsi bir yerdə, eyni əsər daxilində" öz əksini tapmış olduğunu göstərir: "Bu əsərlər tənqidi-realist ədəbiyyatın səciyyəvi təsvir üsulu olan "acı göz yaşları içərisində gülüş" vasitəsilə xalqın taleyini dərin ürək yanğısı ilə əks etdirən ibrətamiz bədii nümunələrdir. Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyası "ölülər aləmi"nin komediyası, Kefli İsgəndərin faciəsi idi. "Azərbaycanın milli istiqlalı haqqında XX əsr boyu yazılmış əsərlərin mənəvi anası" hesab olunan "Anamın kitabı"nda müxtəlif əqidələrə xidmət edən qardaşların komediyası, övladlarını həmrəyliyə dəvət etməklə milli birlik üçün səy göstərən Zəhrabanu ananın faciəsi ümumiləşmiş şəkildə xalqın yaşamış olduğu acınacaqlı taleyin ədəbiyyatdakı real əks-sədasıdır. "Dəli yığıncağı" faciəvi tərəfi ağır gələn komediyadır. "Ər" pyesi yaratdığı çaşqınlıqla birlikdə təsvir olunmuş yeni qurulmuş sosializm cəmiyyətinin faciəsi, mövcud quruluşla uyğunlaşa bilməyən milli ziyalılığın komediyasıdır". M.F.Axundzadənin komediyalarını janr baxımından drama yaxın olan - dramatik komediya hesab edir, Cəlil Məmmədquluzadənin komediyalarının "ideya-estetik cəhətdən faciə janrı ilə" daha çox səsləşdiyini söyləyir.

Azərbaycan ədəbiyyatında tarixi dramların da XX əsrin əvvəllərində yarandığını (Əbdürrəhim bəy Haqverdiyevin "Ağa Məhəmməd şah Qacar" tarixi pyesi, "Pəri cadu" pyesi) yazır.

XX əsrin əvvəllərinin tənqidi realizmi satirik şeiri bədii yaradıcılığın əsas istiqamətlərindən birinə çevirdiyini qeyd edir. Azərbaycan ədəbiyyatı tarixində realist-satirik şeirin yüksək zirvəyə XX əsrin əvvəllərində, tənqidi realizm epoxasında qalxdığını, "Molla Nəsrəddin" jurnalının meydana qoyduğu poetik forma modeli və irəli sürdüyü çağırışların "dövrün böyük satirik şeir məktəbinin yaranması ilə" nəticələndiyini yazır. "Bu mərhələdə mətbuatda təmsil, lüğət, teleqram, poçt qutusu, felyeton, atalar sözü adlandırılan bir sıra satira janrlarının" meydana çıxması, "eyni sistemə aid rəngarəng satira janrlarının yaranması və genişlənməsi"nin satiranın "ədəbi növ səviyyəsində formalaşmasında" mühüm rol oynamış olduğunu da qeyd edir.

Satira elementlərinin kassik Azərbaycan şeirində də mövcud olduğuna toxunur, Qasım bəy Zakirin və Seyid Əzim Şirvaninin satirik şeirlərini yada salır, Mirzə Ələkbər Sabirin bu sahədəki rolunu yüksək qiymətləndirir. Onu Azərbaycan ədəbiyyatında satirik şeir məktəbinin yaradıcısı hesab edir, Azərbaycan tənqidi-realist satirik şeirinin keskin ictimai məzmuna malik olan klassik nümunələrini yaratdığını söyləyir. "Molla Nəsrəddinçilərdən Əli Nəzmi, Əliqulu Qəmküsar, Məmməd Səid Ordubadi, Mirzəli Möcüz, Əli Razi Şamçızadə, Bayraməli Abbaszadə, Əli Məhzun, Baxçaban, Məhəmmədəli Dastançı və başqalarının Azərbaycan realist-satirik şeirini zənginləşdirilməsində rolunu yüksək qiymətləndirir.

İsa Həbibbəyli Azərbaycan ədəbiyyatında satirik publisistikanı XX əsrin əvvəllərinin hadisəsi bilir. "Molla Nəsrəddin" publisistika məktəbinin bu sahədəki xidmətlərini yüksək qiymətləndirir: "Molla Nəsrəddin" jurnalı müxtəlif satirik publisistika janrlarını yaradıb ədəbi dövriyyəyə və mətbuat aləminə gətirmişdir. Felyeton janrı publisistikaya "Molla Nəsrəddin" jurnalı vasitəsilə daxil olmuşdur. Poçt qutusu, teleqram, səyahət, zarafat, məktub janrlarında yazılmış məqalələr mollanəsrəddinçilər tərəfindən satirik publisistika formaları kimi düşünülüb tapılmış və mükəmməl örnəkləri meydana qoyulmuşdur. Dövrün "Babayi-Əmir", "Zənbur", "Kəlniyyət" və sair kimi mətbuat orqanlarında da satirik publisistikanın fərqli formalarında qələmə alınan yazılar çap olunmuşdur. Beləliklə, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatı və mətbuatının satirik publisistika ənənələri formalaşmışdır. "Molla Nəsrəddin" jurnalı Azərbaycanda satirik publisistika hərəkatına başçılıq etmişdir".

*(Davamı var)*

***Gülxani PƏNAH***